*Elnurə Babayeva. Əbdürrəhman Cami irsi türk xalqlarının əlyazma kolleksiyalarında//Əlyazma kitabı Azərbaycan-Türkiyə elmi mədəni əlaqələr kontekstində, 24 oktyabr 2023-cü il, s.80-83.* https://doi.org/10.59849/mbcatr.2023.80

**Orcid: 0009-0004-3231-4116**

**Elnurə Babayeva**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu*
*filologiya üzrə fəlsəfə doktoru*
elnure1430@gmail.com

# ƏBDÜRRƏHMAN CAMİ İRSİ TÜRK XALQLARININ ƏLYAZMA KOLLEKSİYALARINDA

**Xülasə**

Türkdilli xalqlar hər zaman bir-biri ilə iqtisadi, ictimai və siyasi cəhətdən əlaqədar olmuşdur. Məhz bu səbəbdən onların ədəbiyyatında, mədəniyyətində və incəsənətində ümumilik, oxşarlıq daha qabarıqdır və onların ədəbiyyat əlaqəsi də burdan başlamışdır. Bu əlaqələr sırasında Cami, Nəvai, Füzuli kimi sənətkarların xidmətləri misilsizdir.

Əbdürrəhman Cami (1414-1492) Firdovsi, Ömər Xəyyam, Xaqani Şirvani, Nizami Gəncəvi, Cəlaləddin Rumi, Hafiz Şirazi, Əlişir Nəvai, Məhəmməd Füzuli kimi Yaxın və Orta Şərq ədəbiyyatının korifeyləri ilə bir sırada duran müdrik şair və görkəmli mütəfəkkirdir. Şair sağlığında Azərbaycan hökmdarları və şeir-sənət adamları ilə daim əlaqə saxlayıb. Onun "Həqiqi" təxəllüsü ilə şeirlər yazan Cahanşah Qaraqoyunlu, Ağqoyunlu hakimləri Uzun Həsən və Sultan Yaqub, Şirvanşah Fərrux Yəsar ilə dostluq münasibətlərində olduğunu mənbələr sübut edir.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan abidələr əsasında Cami əsərlərinin XIX əsr şairi Mirzə Şəfi Vazehin (1792-1852), şair, rəssam və musiqişünas Mir Möhsün Nəvvabın (1833), mətnşünas alim və böyük müdərris Əbdülqəni Nuxəvi Xalisəqarızadənin (1817-1879) və başqa ziyalıların kolleksiyalarında yer aldığı müəyyən edilmişdir.

Əbdürrəhman Caminin institutda saxlanan "Sühbətül-əbrar" məsnəvisinin 1651-ci ildə köçürülmüş nüsxəsi Abbasqulu ağa Bakıxanova məxsus olub. Onun "Yusif və Züleyxa" poemasının əlyazma nüsxəsinin isə üzərində Abdulla Şaiqin babası Süleyman Talıb oğlunun dördbucaqlı möhürü vardır. "Yusif və Züleyxa" poemasının bir nüsxəsinə də Hüseyn Əfəndi Qayıbovun şəxsi kolleksiyasında rast gəlirik. Bundan əlavə Əlyazmalar İnstitutunda Ə.Caminin "Çehel hədis" əsərinin əlyazması da vardır ki, bu da Abbas Mirzənin dördüncü oğlu, Fətəli şah Qacarın nəvəsi Bəhmən Mirzənin (1811-1884) kolleksiyasına daxildir və s. .

Bədii tərtibatı ilə seçilən Ə.Cami əsərlərinin Əlyazmalar İnstitutunda saxlanan əlyazmaları Türk dünyasının ədəbi əlaqələrinin sübutu olmaqla bərabər, orta əsrlərdə və sonrakı dövrlərdə oxucusunun mütaliə dairəsinin göstəricisidir.

**Açar sözlər:** Əbdürrəhman Cami, əlyazma nüsxələri, yaradıcılıq, əlyazma kolleksiyası, ziyalılar

**Elnura Babayeva**

# THE LEGACY OF ABDURRAHMAN JAMI IN THE COLLECTIONS OF MANUSCRIPTS OF THE TURKIC PEOPLES

**Abstract**

The Turkic-speaking peoples have always been connected with each other economically, socially and politically. It is for this reason that commonality and similarity are more pronounced in their literature, culture and art, and it was here that their literary connection began. Among these connections are the unique merits of such masters as Jami, Navai, Fuzuli.

Abdurrahman Jami (1414-1492) was a wise poet and an outstanding thinker, standing on a par with such luminaries of Middle Eastern and Near Eastern literature as Firdowsi, Omar Khayyam, Khagani Shirvani, Nizami Ganjavi, Jalaladdin Rumi, Hafiz Shirazi, Alisher Navoi, Mohammad Fuzuli. During his lifetime, the poet maintained constant contact with the rulers of Azerbaijan and people of poetry and art. Sources indicate that he was on friendly terms with Jahanshah Garagoyunlu, the rulers of Agkoyunlu Uzun Hasan and Sultan Yagub, Shirvanshah Farrukh Yasar, who wrote poetry under the pseudonym real. Based on the monuments stored at the Institute of Manuscripts named after Mohammad Fuzuli ANAS, the works

of Jami belong to the poet of the XIX century Mirza Shafi Vazeh (1792-1852), poet, artist and musicologist mir Mohsun Navvab (1833), textual scholar and great sage Abdulgani Nuhavi Khalisagarizade (1817-1879) and other intellectuals.

The copy of the masnavi "Syukhbatul-Abrar" by Abdurrahman Jami, preserved at the Institute, dated 1651, belonged to Abbasgulu agha Bakikhanov. On a handwritten copy of his poem "Yusuf and Zuleikha" there is a quadrangular seal of Abdullah Shaig's grandfather Suleiman Talib oglu. We also find a copy of the poem "Yusuf and Zuleikha" in the personal collection of Huseyn efendi Gaibov. In addition, at the Institute of Manuscripts ANAS. There is also a manuscript "Chehel hadis" by Jami, which is included in the collection of the fourth son of Abbas Mirza, grandson of Fatali Shah Qajar Bahman Mirza (1811-1884), etc.

It was distinguished by its artistic design.The manuscripts of Jami's works stored at the Institute of Manuscripts are not only evidence of the literary ties of the Turkic world, but also an indicator of the readership range in the Middle Ages and later.

**Key words:** Abdurrahman Jami, copies of manuscripts, creativity, collection of manuscripts, intellectuals

Əbdürrəhman Cami hicri tarixlə 23 şaban 817-ci ildə, miladi tarixlə isə 7 noyabr 1414-cü ildə Xorasanın Cam şəhərinin Xərcird kəndində anadan olmuşdur. O, özünün birinci divanının müqəddiməsində verdiyi məlumata görə, Cami təxəllüsünü Cam şəhərinə və Əhməd Nəməki Caminin xatirəsinə hörmət əlaməti olaraq qəbul etmişdir. Onun babası İsfahandan Xorasana köçmüş və burada İmam Məhəmməd bin Həsən əş-Şeybaninin nəslindən gələn bir qızla evlənmişdir. Bu izdivacdan Caminin atası Nizaməddin Əhməd dünyaya gəlmişdir. Cami ilk təhsilini atasının yanında almış, sonra atası Herata gedib Nizamiyyə mədrəsəsində müəllim işləyərkən, təhsilini orada davam etdirmişdir. Sonralar Cami dövrünün məşhur alimlərindən sayılan Mövlana Cüneydi Üsulidən ərəb dili və ədəbiyyatını öyrənmiş, Seyyid Şərif əl-Cürcaninin tələbələrindən olan Əli əs-Səmərqəndi və Təftəzaninin şagirdlərindən olan Şahabəddin Məhəmməd əl-Cərminin yanında tədrisini davam etmişdir. Daha sonra o, Uluğbəy zamanında böyük elmi mərkəzə çevrilən Səmərqəndə gedərək, 9 il orada yaşamışdır. Burada Cami, Bursalı Qazızadə Rumidən riyaziyyat dərsləri almış, Fətullah Təbrizinin elmlərindən faydalanmışdır. Ümumiyyətlə, Cami hələ ilk gəncliyindən elmlərə olan həvəsi, istedadı, zəkası ilə seçilmişdir. Məşhur alim Hüseyn Vaiz Kaşifi öz əsərlərində Caminin təhsili ilə bağlı olduqca maraqlı faktlar qeyd etməkdədir. Dövrünün görkəmli astonomu və riyaziyyatçısı sayılan Əli Quşçu da Heratda olduğu zaman Cami ilə görüşmüş, astronomiya ilə bağlı Camiyə bir neçə sual vermişdir. Caminin cavabları bu böyük alimi heyrətləndirmiş və o, Caminin astoromiya sahəsində olan biliklərini yüksək qiymətləndirmişdir. Lakin gənc yaşlarından bütün dünyəvi elmləri gözəl bilən Cami bu elmlərlə kifayətlənməmiş, başqa sözlə desək, bu elmlər Caminin mənəvi aləmini tam təmin etməmişdir. Buna görə də o, Səmərqəndə dönən zaman nəqşibəndi şeyxlərindən Sədəddin Kaşğari və onun tələbəsi Xacə Ubeydullah Əhrarla yaxınlaşmış, mənəvi ruhi tellərlə onlarla bağlanmışdır. Cami 1472-ci ildə Həcc ziyarətinə getmişdir. Həcc səfərindən dönən zaman Təbrizdə olarkən Ağqoyunlu hökmdarı Uzun Həsən onun Təbrizdə qalmasını xahiş etsə də, Cami 1474-cü ildə Herata qayıtmışdır. O, burada ömrünün sonuna qədər Sultan Hüseyn Bayqaranın onun üçün tikdirdiyi mədrəsədə ərəb dili və ədəbiyyatı, hədis və təfsirdən dərs demişdir. Cami 9 noyabr, 1492-ci ildə Heratda vəfat etmişdir. O, Hüseyn Bayqara və Əlişir Nəvai tərəfindən yüksək təmtəraqla, şeyx Sədəddin Kaşğarinin yanında dəfn edilmişdir (Okumuş, 1993: 94-99).

Dahi fars-tacik şairi Əbdürrəhman Caminin yaradıcılığı həyat, ədəbiyyat, fəlsəfə və mədəni epoxanın ən ziddiyyətli cərəyanlarını özündə birləşdirən XV əsrə təsadüf edir. Onun şöhrəti hələ sağlığında Xorasan və Mavərənnəhrdən (VII-VIII əsrlərlərdəki işğalları zamanı Amurdəryanın sağ sahilindəki torpaqlara ərəblərin verdiyi ad) uzaqlara - İran, Hindistan, İraq və Kiçik Asiyanın ucqarlarına qədər gedib çatmışdı. Cami yaradıcılığının tədqiq edənlər mütəfəkkirin ədəbiyyat və mistikaya aid 50-dən yuxarı əsərinin olduğunu bildirir. Bu əsərlər arasında isə Caminin poetika, dilçilik, fəlsəfə, musiqi və s. elm sahələrinə aid traktatları, elmi - nəzəri əsərləri, yeddi monumental epik - romantik poemalar külliyyatı olan "Həft - övrəng" kitabı, üç lirik şeirlər divanı: "Fatihətəş - şəbab" (Gəncliyin başlanğıcı), "Vasitətül - iqd" (Boyunbağının orta incisi), "Xatimətül - həyat" (Həyatın sonu), "Nəfəhatül - üns" adlı təzkirəsi, "Baharıstan" adlı didaktik əsəri, "Xirədnameyi - İskəndəri", ərəb dilinin qrammatikası (morfologiya) barədə "Şərhu-Cami", "qırx hədis", "Risaleye-musiqi", "Risaleye-əruz" (Nağıyeva, 2009: 4) və s. bu kimi dəyərli nümunələr Şərq xalqlarının mədəniyyət xəzinəsini zənginləşdirmişdir. Caminin bütün yazılı irsi-

məsnəvi, qəzəl, rübai, qitə kimi topluları təsəvvüf dünyagörüşünün təsiri ilə yaranıb. Eyni zamanda, Cami müqəddəs "Quran"nı şərh etmiş, İbn əl - Fərabinin sufi poeziyası, İbn əl-Ərəbinin yaradıcılığı haqqında fəlsəfi traktatlar yazmışdır. Elə bir klassik janr yoxdur ki, Cami qələmini orada sınamasın. Cami yaradıcılığı, hələ öz dövründən Azərbaycan şairlərinin diqqətini cəlb etmişdir. Onun əsərlərinin mövzu, məzmun və sənətkarlıq baxımından rəngarəngliyi XVIII əsr şairi Molla Pənah Vaqifin nəzərindən qaçmamış və onun gözələ müraciətlə "Bəri bax!" şeirində:

*Mən sənin vəsfini ey mahi - kərəm,*
*Hafizdən, Camidən artıq söylərəm,-*

deməsi təsadüfü olmamışdı.

Dini ədəbiyyatda da Cami yaradıcılığı öz layiqli qiymətini almışdır. XIX əsr şairi Məhəmmədtağı Qumri Dərbəndi bir "Saqinamə"sində saqiyə müraciətlə Həzrəti - Əlinin (ə) tərifi üçün bir məclis qurmağı və bu məclisə Xaqani, Nizami, Sədi və başqa böyük sənətkarları dəvət etməyi tapşırır. Elə ki, növbə Camiyə çatır, Qumri "Gətir" rədifli şeirində deyir:

*Cami - vəhdətdən içən Camiyi - cəmcaha deyin*
*Açıban dürci - fəsahət, dürü mərcani gətir* (Quliyev, 1989: 322)

XII əsrin sonlarından başlayaraq XIII, XIX əsrlərdə və XX əsrin ilk illərinə qədər fəaliyyət göstərən məktəb - mədrəsələrdə istifadə olunan əlyazma məcmuələrinin əksətiyyətinə Caminin öz dəyərli məzmunları ilə seçilən "Gilaür - ruh", "Lüccətül - əsrar", "Şərhu bismillah", "Şəfid - şod", "Çu peyvənd" qəsidələrinin daxil edildiyi aşkarlanmışdır. Şairin əsərlərinin üzünün köçürülüb Azərbaycanda geniş yayılmasında Şirvan mədrəsələrinin rolu da xüsusilə böyük olmuşdur. Bu faktlar Cami əsərlərinin şöhrətini, təsir dairəsini öyrənməklə bərabər, Azərbaycan müəlliflərinin yaradıcılığını, əsərlərini yazarkən hansı şairdən, necə bəhrələndiyini öyrənmək üçün tutarlı mənbədir.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan adidələr əsasında Cami əsərlərinin XIX əsr şairi Mirzə Şəfi Vazehin (1792-1852), şair, rəssam və musiqişünas Mir Möhsün Nəvvabın (təv. 1833), mətnşünas alim və böyük müdərris Əbdülqəni Nuxəvi Xalisəqarızadənin (1817-1879) və başqalarının ixtiyarında olduğu da Azərbaycan Milli Elmlər akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan abidələr əsasında müəyyən edilmişdir. Bakı Əlyazmalar İnstitutunda Əbdürrəhman Caminin "Həft övrəng" əsərinin altı əlyazma nüsxəsi mühafizə olunur ki, onlardan biri killeksioner Novruz Ağayevin (1874-1947) ixtiyarında olmuşdur. "Töhfətül-əhrar" əsərinin əlyazmalarından biri, XV əsrin axırı-XVI əsrin əvvəllərində köçürülmüş nüsxəsi Abbas Mirzənin yeddinci oğlu Xosrov Mirzənin kolleksiyasından gəlmişdir (Kərimov, 2021: 3). XX əsrin görkəmli şairi, pedaqoqu, xəttatı və həkimi Abbas Səhhət Cami əsərlərlərini yüksək qiymətləndirənlərdən biri olmuşdur. Belə ki, Abbas Səhhət maddi durumunun ağır olmasına baxmayaraq, şairin əsərlərini toplayaraq onun kolleksiyasını yaratmışdı (Kərimov, 2021: 3).

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda A-287 şifri altında Əbdürrəhman Caminin "Sühbətül-əbrar" məsnəvisinin əlyazma nüsxəsi saxlanılmaqdadır ki, bu abidənin titul vərəqinin üzərində basılmış möhürdən Abbasqulu ağa Bakıxanova məxsus olduğu aydın olur. Həmçinin Bakıxanova məxsus möhürdə kitab haqqında sözləri və imzası da vardır. Ümumi həcmi 104 vərəq olan əlyazma nüsxəsinin cildi qəhvəyi meşindir. Əsərin mətni qara mürəkkəblə, nəstəliq xətti ilə yazılmışdır. Mətn qırmızı mürəkkəblə çərçivəyə alınıb. Əlyazmanın kağızı ağ, saya rəngli vərəqlərdir. Əsərin zərif ornamentli başlığı vardır. Köçürülmə tarixi 1651-ci olaraq göstərilmişdir (Cami, h.1651: $1^a$-$104^b$). Əbdürrəhman Caminin "İnşa"əsərinin əlyazması kolleksioner Novruz Ağayeva (1874-1948) mənsub olub. Əsərdə Caminin Sultan Hüseyn Bayqara, Əlişir Nəvai, Qazizadə Rumi, Übeydullah Səmərqəndi və başqalarına göndərdiyi məktubların və onların cavablarının surətləri toplanıb. Mətn ağ, saya Şərq istehsalı olan vərəqlərə qara, sərlövhə və yarımsərlövhələr qırmızı mürəkkəblə, incə nəstəliq xətti ilə köçürülüb. Əlyazmanın saxlanma vahidi B-80-dır. Ümumi həcmi 145 vərəqdən ibarətdir. Əlyazmanın ölçüsü 12x20sm-dir. Köçürülmə tarixi 1663-cü il, katibi Şeyx Əhməd bin Məhəmməddir. Cildi sonradan bərpa olunmuş qara rəngli dermatindir (Cami, h.1651: $1^a$-$145^a$). Əbdürrəhman Caminin "Yusif və Züleyxa" poemasına gəlincə, bu əsərin bir neçə tanınmış şəxsiyyətlərin kolleksiyasında yer aldığı məlumdur. Qeyd etmək vacibdir ki, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda bu əsərin 150-dən çox nüsxəsi mövcuddur. Əsərin B-2275 şifri altında saxlanan nüsxəsi üzərində olan yazıdan onun Abdulla Şaiqə mənsub olduğu aydın olur. Ümumi həcmi 83 vərəqdən ibarət olan əlyazma əvvəldən və ortadan naqisdir. Əlyazmanın kağızı ağ, saya rəngli vərəqlədir. Ölçüsü 15x21sm-dir. Əsasən qara mürəkkəblə nəstəliq xətti

ilə yazılmışdır. Şərti işarələr və yarımbaşlıqlar qırmızı mürəkkəblə verilib. Mətnin 28-ci vərəqində Azərbaycan və fars dilində sətiraltı tərcümə və izahlar vardır. Köçürülmə ili 1820 –ci ildir. Katibi Xaçmazinin mədrəsəsində Əhməd əfəndi Qarabağinin hüzurunda Əli ibn Qazi Qarabaği olaraq qeyd edilib. Köçürülmə yeri kimi isə Bərgüşad olaraq göstərilmişdir. Əlyazmada həmçinin kitabın yazılması ilə bağlı bir neçə beyt və katib qeydləri vardır. Sonra isə bir neçə rübai verilib (Cami, 1820: 1[b]-83[a]).“Yusif və Züleyxa” poemasının B-628 şifri altında saxlanan əlyazma nüsxəsi Hüseyn Əfəndi Qayıbovun şəxsi kolleksiyasına aid olub. Ümumi həcmi 191 vərəq olan bu əlyazma qara mürəkkəblə nəstəliq xətti ilə yazılıb. Kağızı ağ, saya rəngli vərəqlərdir. əlyazma avtoqrafdır və köçürülmə ili 1857 –ci il olaraq göstərilmişdir. Cildi kartondur (Cami, 1857: 1[b]-191[b]).“Yusif və Züleyxa” poemasının digər əlyazma nüsxəsinin kolleksioneri Abdulla Şaiqin babası Süleyman Talıb oğludur. Əlyazmanın üzərində sahibinə məxsus dördbucaqlı möhürü vardır. Abidə B-2039 şifri altında mühafizə olunur. Əlyazmanın ölçüsü 13x21 sm-dir. Ümumi həcmi 134 vərəq olan əlyazmanın kağızı ağ, saya rənglidir. Əsasən qara mürəkkəblə nəstəliq-şikəstə xətti ilə yazılmışdır. Başlıqlar, bəzi sözlərin izahı qırmızı mürəkkəbdədir. Cildi paginasiyaları olan qara rəngli dermatindir. Cildin üzərində medalyon vardır. Əlyazmanın bir neçə son vərəqində bəzi ərəb istilahlarının azərbaycancaya tərcüməsi, azərbaycanca-farsca müxtəlif şeir nümunələri, fərdlər və s. yazılıb (Cami, 1[a]-134[a]).

Caminin M-513 şifrəsi altında mühafizə olunan “Çehel hədis” əsərinin kolleksionu Şahzadə Bəhmən Mirzədir. Əlyazmanın titul və son vərəqində möhür və onun 1837-ci ildə kolleksionerin kitabxanasına daxil oması qeydi var. Əlyazma XVəsrə aiddir. Əsər Məhəmməd Peyğəmbərə aid edilən seçilmiş 40 hədisin poetik tərcüməsidir. Əlyazmanın bədii tərtibatı olduqca gözəl hazırlanıb. Cami əlyazmalarının tədqiqatçısı Cənnət Nağıyevanın bu nüsxə haqqında fikirləri diqqətəlayiqdir: “*Əlyazmanın qiyməti yalnız onun qədimliliyində, nadirliyində və Şərqdə xəttatlıq tarixini öyrənmək üçün əhəmiyyətində deyil, o, mətnin dürüstlüyü ilə, orada “Çehel hədis”in orijinal mətninin -ərəbcə mətninin farsca mətni ilə birlikdə verilməsi ilə fərqlənir . Bu hissələr bütünlüklə zərlə yazılmışdır*” (Nağıyeva, 2009: 193).

Əlyazma nəstəliq xətti ilə Şərq istehsahsallı vərəqlərə yazılıb. Kağızı nazik, krem rəngli vərəqlərdir. Mətn qara, qızılı, qırmızı rəngli ikiqat çərçivəyə alınıb. Katibi Şahsuvar Sultani olaraq qeyd olunub. Əlyazmanın ölçüsü 17x22sm-dir (Cami, 1837: 1[b]-98[a]).

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan Cami əsərlərinin əlyazmaları öz bədii tərtibatına görə, mətnşünaslıq və arxeoqrafik baxımından çox qiymətlidir. Bunun da səbəbi bu nüsxələrin azərbaycanlı şah və şahzadələr üçün sifarişlə köçürülmüş oması, həmçinin xəzinə malı kimi onların şəxsi kolleksiyalarında saxlanılmasıdır. Məhz bu səbəbdən əlyazmaların bədii tərtibatına xüsusi fikir verilmişdir. Qeyd etmək lazımdır ki, Əbdürrəhman Caminin əsərləri Azərbaycan şair və yazıçılarının, geniş xalq kütləsinin rəğbətini qazandığı üçündür ki, bu əsərin bir çox əlyazmaları Azərbaycan kolleksiyaçılarının kitabxanalarında fəxri yer tutur. Bunlar təbii ki, ən nadir və nəfis nüsxələrdir.

Cami əlyazmaları həmçinin şairin ədəbi-bədii yaradıcılığını, xüsusən Azərbaycan–tacik xalqlarının qarşılıqlı ədəbi əlaqələrini, bu əlaqələrin qədimliliyini, möhkəmliliyini Şərqdə xəttatlıq, ornament və miniatür sənəti tarixini, inkişaf yollarını öyrənmək üçün də əhəmiyyətlidir.

**ƏDƏBİYYAT:**


1. ƏYİ A-287 “صبحة الابرار”

2. ƏYİ B-84 “انشا”

3. ƏYİ B-2275 “يوسف ذليخا”

4. ƏYİ B-628 “ يوسف ذليخا”

5. ƏYİ B-2039 “يوسف ذليخا”

6. ƏYİ M-513 چهل حديث

8. Kərimov, P.Ə. Mənəvi-mədəni irs xəzinəmizin dəyərli inciləri // [Elektron resurs] URL: https://525.az/news/25273-menevi-medeni-irs-xezinemizin-deyerli-incileri

7. Köçərli, F.Ə. (1988). Azərbaycan ədəbiyyatı / F.Ə.Köçərli . II c., Bakı: “Elm”

8. Quliyev, A. (Sarovlu) (1989). Əbdürrəhman Cami “Yusif və Züleyxa” poeması / A.Quliyev –Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı

9. Nağıyeva, C.M. (2009). Əbdürrəhman Cami əsərlərinin Bakı nüsxələri / C.M. Nağıyeva, Ic., Bakı: Nurlan, 327s.

10. Okumuş, Ö (1993). Cami Abdurrahman / İslam Ansiklopedisi TDV-7.cilt. s. 94-99